# Hərb elminə yeniliklər gətirən "Artilleriyanın tanrısı"

**O, döyüş meydanlarında göstərdiyi şücaətlə, sərkərdəlik məharəti ilə heyrətləndirirdi. Hələ çar ordusunda xidmət etdiyi vaxtlarda qəhrəmanlığından bəhs olunur, yüksək rütbələrə, ordenlərə, mükafatlara layiq görülürdü. Əliağa Şıxlinski öz müasirləri üçün belə əfsanəvi general, zamanın fövqündə dayanmış şəxsiyyət idi.**

O, yüz altmış il öncə, 1865-ci ildə Yelizavetpol quberniyası, Qazax qəzasının Qazaxlı (indiki Aşağı Salahlı) kəndində dünyaya gəlmişdi. İgidləri ilə seçilən, ehtiram göstərilən bir nəslin cəsur övladı idi. Sonralar - 1942-ci ildə Əliağa Şıxlinski qələmə alacağı "Xatirələrim" kitabında ata-babaları və məşhur soyadı barədə yazacaqdı: "Atam İsmayıl ağa Alqazax oğlu Şıxlinski əslı 1537-ci ildən başlayan igid bir nəslə mənsub idi. Bizim ulu babamız Ağdolaq Məmməd ağa Qazax qəzasına Şəmkirdən köçüb gəlmişdir. Onun iki oğlu vardı, böyük oğlu Şıxı - çox ağıllı və sakit, kiçiyi Alqazax - çox igid, amma dəlisov idi. Mən Alqazaxın nəslindənəm... Böyük oğlundan olan övladlar Şıxızadə familiyasını aldılar, kiçik oğuldan olan bizim nəsil isə Alqazax oğlu familiyasını qəbul etdi. Azərbaycan Rusiya tərkibinə daxil olduqdan sonra bütün yerlilər özləri üçün rus familiyalarına bənzəyən familiyalar qəbul etməyə başladılar, bizim nəslin hər iki qolu Şıxlinski familiyasını qəbul etdi". Əliağa Şıxlinski, anası Şahyəmən xanımın (Qayıbova) isə Azərbaycanın məşhur şairlərindən Molla Vəli Vidadinin nəvəsi olduğunu yazıb.

Atası İsmayıl ağa kiçik oğlu Əliağanın hərbi məktəbdə təhsil almasını istəyirdi. Əliağa Şıxlinskinin 1876-cı ilin avqustunda Tiflis hərbi gimnaziyasının birinci sinfinə qəbul olması bu arzunun həyata keçməsi yolunda hələ ilk addım idi. Bu, cüssəli, güclü, diribaş, qoçaq uşaq hərbi biliklərə həvəslə yiyələnirdi. Kadet korpusuna çevrilmiş həmin gimnaziyanı 1883-cü ildə böyük müvəffəqiyyətlə başa vurdu. Elə həmin ildən kadet korpuslarından seçilmiş ən yaxşı tələbələrin oxuduğu Sankt-Peterburqdakı Mixaylovsk artilleriya məktəbində təhsilini davam etdirdi. Çar Rusiyasında artilleriya üzrə ən yaxşı mütəxəssislərdən, məşhur artilleriyaçılar Nil Lvoviç Kirpiçev, Nikolay Vladimiroviç Maiyevski və Aksel Qadolindən dərs alırdı. Müəllimləri onun hərbçi kimi istedadını, hərbi bilikləri mənimsəmək marağını və cəhdlərini yüksək qiymətləndirirdilər. Əliağa Şıxlinski seçdiyi peşəni dərindən öyrənmək üçün dərslərindən əlavə olaraq başqa təhsil ocaqlarında keçirilən kurslarda, kütləvi mühazirələrdə iştirak edirdi. O, diqqətləri çəkdi, fəallığı və uğurları sayəsində təhsilin başlamasından 7 ay sonra yunkerdən unter-zabitə yüksəldi. 1885-ci ilin oktyabrında portupey-yunkerliyə layiq görüldü.

Məktəbi 1886-cı il avqustun 11-də podporuçik rütbəsi almaqla birinci dərəcə ilə bitirdi. Xidmətinin ilk ilində artilleriya briqadasının tədris komandasının müəllimi, sonra isə briqada komandasının rəisi oldu. Əliağa Şıxlinskinin 1900-cü ildə Şərqi Sibirə dəyişdirilməsi xahişi Əlahiddə Zabaykalye artilleriya divizionunun batareya baş zabiti vəzifəsinə təyin edilməsi ilə nəticələndi. O, həm də artilleriya toplantısı komitəsinin sədri kimi dəfələrlə batareya və divizion komandirlərinin səlahiyyətlərini icra etdi.

1904-cü ildə baş verən rus-yapon müharibəsi həm də Əliağa Şıxlinskinin hərbi bacarıqlarını üzə çıxardı. Yapon döyüşçülərinə ağır zərbələrin endirilməsində böyük xidmətlər göstərdi. O, Port-Artur müdafiəsinin qəhrəmanı oldu. "İgidliyə görə" medal və üstü yazılı qızıl qılıncla Port-Arturda yaponların basqınını dəf etməkdə fərqləndiyi üçün təltif olundu. Əliağa Şıxlinski yalnız fövqəladə, xüsusi rəşadət, mərdlik, əla əsgəri qəhrəmanlıq göstərən hərbi qulluqçuların layiq görülduyü "Müqəddəs Georgi" ordeni ilə təltif edildi. 1905-ci ildə çapdan çıxan "Yaponlarla müharibənin salnaməsi" almanaxında yazılırdı: "Podpolkovnik Əliağa Şıxlinski bu döyüşdə böyük şücaət göstərmiş, ixtiyarında olan yarımbatareyanın nişançıları həlak olduğundan çox vaxt topları şəxsən özü tuşlayaraq düşmən artilleriyasını dəfələrlə susmağa məcbur etmiş və adıçəkilən istehkamlara yaxınlaşmağa can atan yapon piyadalarını qeyri-adi cəsarətlə geri oturtmuşdur"...

1906-cı ilin fevralından avqustunadək Çarskoye-Selo şəhərindəki Artilleriya Zabitləri məktəbində keçdiyi kursu yüksək göstəricilərlə başa vurdu, həmin məktəbdə müəllim saxlanıldı. Əliağa Şıxlinski gözlə görünməyən hədəfi nişan alan "Şıxlinski üçbucağı" hərbi-elmi nəzəriyyəsini də həmin il kəşf etdi. Onun bu nəzəriyyəsi 1924-cü ildə Qızıl Orduda müvəffəqiyyətlə həyata keçirildi...

1907-ci ildə Riqada yerləşən 29-cu topçu briqadasında batareya komandiri oldu. Vaxtından əvvəl polkovnik rütbəsi ona xidmətdə fərqləndiyinə görə verildi.

Uğurları sıralanırdı. Aeroplanların tətbiqi təcrübələrinin işlənməsi üzrə komissiyanın 1912-ci ildə üzvü, bir ildən sonra məktəb rəisinin köməkçisi oldu. 1914-cü ildə ona "Fəxri Legion ordeni" təqdim olundu. Məktəbdə, qoşun bölmələrində və Peterburqun müxtəlif elmi yığıncaqlarında oxuduğu hərbi mövzuda silsilə mühazirələri Baş Qərargahın əmrilə kitabça şəklində çap edildi. Əliağa Şıxlinskinin "Divizion miqyasında topçu manevrlərinin təşkili üçün təlimat", "Dağ və səhra artilleriyası üçün məsələ və misallar məcmuəsi" (1913-cü ildən 1916-cı ilədək üç dəfə təkrar nəsr olunub), "Səhra toplarının cəbhədə işlədilməsi" və "Topçu zabitləri məktəbində podpolkovnik Şıxlinski tərəfindən oxunmuş mühazirələrin xülasəsi" kimi sanballı, geniş hərbi bilik aşılayan kitabları işıq üzü gördü.

1914-cü ildə Birinci Dünya müharibəsi başladı. Müharibənin əvvəllərində o, gəmilərdən alman desantçılarının çıxarılması ehtimalına qarşı Petroqrad artilleriyasının rəisi təyin edildi. Rusiya paytaxtının müdafiəsi ona tapşırıldı. Müdafiə xətti üzrə bütün cəbhəni dolaşır, batareya qurğularının yerini, atəş mövqelərinin qurulması qaydasını müəyyən edirdi. Çox keçmədən Şimal-Qərb cəbhəsinin artilleriya müfəttişi vəzifəsinə təyin olunan Əliağa Şıxlinski tapşırıqların yerinə yetirilməsində artilleriya qruplarına rəhbərlik etdi. Həmişə ön mövqelərdə görünən Əliağa Şıxlinski topçu hissələrinin yerlərini yoxlayır, topları daha düzgün yerləşdirmək üçün göstərişlər verir, onların döyüş əməliyyatlarını izləyir və rəhbərlik edirdi. 1917-ci ilin aprelində ona general-leytenant rütbəsi verildi.

Həmin il Rusiyada baş verən inqilab nəticəsində çar hökuməti devrildi. Hakimiyyəti müvəqqəti hökumət ələ keçirdi. Bir müddət orduda xidmətini davam etdirən Əliağa Şıxlinski 1917-ci ilin noyabrında Qafqaza döndü.

O, Tiflisdə azərbaycanlılardan ibarət milli korpus yaratmaqla Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğunun bünövrəsini qoydu. "Xatirələrim"də bu barədə yazırdı: "Tiflisə qayıtdıqda, müvəqqəti olaraq mənə korpus komandanlığı həvalə olduğu barədə əmri oxudum. Öz xalqımın, baş verə biləcək xarici təzyiqlərdən və daxili qarışıqlıqlardan özünü qorumasına xidmət etmək arzusu ilə korpus təşkil etməyi qət edib, Tiflisdə öz qərargahımı düzəltməyə başladım... Dekabrın 31-də mən öz qərargahımın ilk heyəti ilə Gəncəyə getdim ki, orada hissələrin təşkil edilməsilə məşğul olum. Korpus hissələrinin təşkilində böyük əngəllərə rast gəlirdik".



1918-ci ilin oktyabrında Gəncədə yeni yaratdığı Milli Azərbaycan Korpusunun əsgərləri qarşısında çıxış edən Əliağa Şıxlinskinin özü də, sözləri də əzəmətli görünürdü: "Azərbaycanlılar birdəfəlik bilməlidirlər ki, doğma ordu əsla tənbəlxana deyil və onun mövcudluğu hər hansı bir azərbaycanlının maddi rifahını daha da yaxşılaşdırmaq üçün yaranmayıb. Ordu xalqın istinadgahıdır - bura xalqın ləyaqətli oğulları gəlməlidir", - Əliağa Şıxlinski deyirdi.

1918-ci il dekabrın 29-da cümhuriyyət hökumətinin qərarı ilə o, hərbi nazirin müavini təyin olundu. Hərbi nazir Səməd bəy Mehmandarov idi.

Əliağa Şıxlinskiyə 1919-cu il iyulun 28-də tam artilleriya generalı rütbəsi verildi. Onun təşəbbüsü ilə 1920-ci ilin martında Azərbaycan Xalq Cümhuriyyətində Azərbaycan Qızıl Aypara Cəmiyyəti təsis edildi.

Müstəqil Cümhuriyyət hökumətinin qurucularının böyük arzularla, ümidlərlə həyata keçirdikləri işlər yarımçıq qaldı. 1920-ci il aprelin 27-də XI Qırmızı Ordu Azərbaycanı işğal etdi. Səməd bəy Mehmandarov xəstə idi. Ona görə də nazir vəzifəsini Əliağa Şıxlinski yerinə yetirirdi. Düşmən güclü, qarşısıalınmaz idi...

Səhəri gün - aprelin 28-də Səməd bəy Mehmandarov həbs edildi. Vətənin qeyrətli, millətsevər övladları olan generalları - Əliağa Şıxlinskini, Səməd bəy Mehmandarovu repressiyadan Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1-ci sədri Nəriman Nərimanov xilas edə bildi. O qərara gəldi ki, generallardan dəyərli hərbi mütəxəssis kimi mərkəzi hərbi aparatda istifadə etmək üçün Moskvaya, Vladimir İliç Leninin yanına göndərsin. Əliağa Şıxlinski Ali Artilleriya Məktəbində müəllim və Artilleriya Nizamnamə Komissiyasının tərkibində fəaliyyət göstərdi.

Bakıya 1921-ci ildə gəldi. Əliağa Şıxlinski Bakı qarnizonunun hərbi-elmi cəmiyyətində sədr müavini vəzifəsində işlədi. Daha sonra Moskvadakı Ali Artilleriya Məktəbində müəllimlik etdi, Petroqrad Topçu Akademiyasında mühazirələr oxudu. 1922-ci ildə Azərbaycan Komanda heyəti məktəbində topçuluqdan dərs dedi və Hərbi-Elmi Cəmiyyətin sədr müavini oldu. O, 1924-cü ildə Azərbaycan Komanda Heyəti məktəbinin rəis müavini, 1925-ci ildə Azərbaycan Hərbi tərcümə kollegiyasının baş redaktoru işlədi. 1926-cı ildə "Rusca-Türkcə qısa hərbi lüğəti", 1927-ci ildə "İşçi-kəndli Qızıl Ordu topçusunun döyüş təlimnaməsi" elmi əsəri nəşr olundu.

Səhhətində 1929-cu ildən sonra problem yarandı, eşitmə və görmə qabiliyyəti zəifləməyə başladı. "Artilleriyanın tanrısı" ləqəbli Əliağa Şıxlinski 1943-cü il avqustun 18-də ürək çatışmazlığından xəstəxanada dünyasını dəyişdi. Dəfn mərasimi görkəmli sərkərdələrə məxsus hərbi qaydada keçirildi. Məzarı başında topdan və avtomatlardan yaylım atəşi açıldı...

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***